2009.-4 dekabr.-S.6

Ədəbiyyat qəzeti

## Məhəmməd Tağı Sidqi - 155

# Elmi-praktik konfrans

Naxçıvan Özəl Universitetində "Məhəmməd Tağı Sidqi - 155" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransı giriş sözü ilə universitetin tədris və elmi işlər üzrə prorektoru İbrahim Kazımbəyli açaraq Məhəmməd Tağı Sidqinin həyatı və pedaqoji fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, Məhəmməd Tağı Səfərov (Sidqi) 1854-cü ilin mart ayında Ordubad şəhərində pinəçi ailəsində anadan olmuşdur. Atası M.Tağının savadlı olması üçün səy göstərir və onu 9 yaşında bir müdərrisin yanında təhsil almağa qoyur.Kiçik Məhəmməd Tağı ilk təhsilini köhnə üsul ilə həmin alimin yanında, sonralar isə Şah Soltan Hüseyn mədrəsəsində almışdır. Bu dövrdə ərəb, fars dillərini mükəmməl öyrənən Məhəmməd Tağı klassik Şərq ədəbiyyatı nümunələrini oxuyur, görkəmli şair və yazıçıların əsərlərini həvəslə mütaliə edirdi. Atası vəfat etdikdən sonra M.Tağı ailə qayğısı çəkməli olur. Bir müddət Ordubad tacirləri ilə Cənubi Azərbaycanın bir çox şəhərlərinə ticarətə gedir. Bu iş xoşuna gəlmədiyindən o, geri qayıtmayıb bir neçə il İranda yaşayır. 1885-ci ildə isə yetkin və kamil bir şəxs kimi Ordubada qayıdır, böyük maraqla ədəbi fəaliyyətini davam etdirib qəzəl, qəsidə, mənzumələr yazır. Çox keçmir ki, əsası 1838-ci ildə görkəmli Azərbaycan şairi Şıxlı Naib tərəfindən qoyulmuş "Əncüməni-Şüəra" məclisini bərpa edir.

Qeyd olunur ki, Sidqi var qüvvəsini xalqın və həmyerlilərinin tələb olunan yeni məzmunlu maarif və mədəniyyətə yiyələnməsinə sərf etmək istəyirdi. Sidqi baş verən müsibətlərin xilas yolunu xalqın hamılıqla savadlana bilməsində, mövcud məktəblərdə təlimin ana dilində olmasında görürdü. O, belə bir fikrə gəlir ki, nə olursa-olsun yeni üsulda ana dilli bir məktəb açıb vətən övladlarını dünyəvi elmlərdən xəbərdar etmək lazımdır. 1892-ci ildə Ordubadda İbrahimxan mədrəsəsi adlanan binada ana dilində ilk milli məktəb təsis edib, ona "Əxtər" adını verir. "Əxtər"in açılması M.T.Sidqinin pedaqoji fəaliyyətə başlamasının ilk dövrü hesab olunur. Azərbaycan maarifi və məktəbdarlığının inkişafında Sidqi-



nin göstərdiyi misilsiz xidmətlər yalnız təsis etdiyi məktəblərlə bitmir. O, "Heykəli-insana bir nəzər", "Puşkin", "Kəblə Nəsir" kimi mətbu, "Bifzusəhhət" və.s kimi lüzumlu dərslikləri yazmışdır. Bundan əlavə M.T.Sidqinin "Pedaqogika" dərsliyinin də müəllifi olduğu tədqiqat nəticəsində aşkar edilmişdir.

Sonra universitetin tərbiyə işləri üzrə prorektoru Əli Yusifov konfransın mahiyyəti barədə məlumat verib. Tələbələrdən Türkanə Salmanova, Gülnarə Əzizəliyeva, Vüqar Abbasov məruzələr ediblər.

**M.Qasımova**

*Naxçıvan Özəl Universiteti*